# 31 Oktyabr 2009 GƏNC OFTALMOLOQLARIN III KONFRANSI



Bir ənənə olaraq, 2009-cu ilin 31 oktyabr tarixində akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzində və Mərkəzin filialı Masallı şəhərində Gənc Oftalmoloqların III Konfransı keçirilib. Oftalmologiyanın ən aktual və müasir problemlərinə dair 21 gənc oftalmoloqun çıxışı dinlənilmişdir: Mahmudova N.A., Həsənov C.V., Abduləliyeva F.İ., Aşumova Q.M., Hüseynov X.R., Hüseynov E.S., Cəlilova E.R., Balayeva R.N., İbrahimova N.M., Haqverdiyeva V.A., Əfəndiyeva M.E., Həsənova L.A., Hüseynli S.F., Əliyeva N.A., Kazımova B.X., Babayeva R.E., Vəliyeva L.Y., Mirişova M.F., Kərimova S.A., Sultanova M.M., İbadov S.Ə., Əliyev X.D., Salmanova S.

Növbəti Konfransın keçirilməsi 30 oktyabr 2010 –cu ildə nəzərdə tutulub.















*Redaksiya heyəti*




2009-cu ilin 11-15 Noyabr tarixində Türkiyənin Antalyadakı Rixos-Sungate mehmanxanasında Professor Dr. Turqay Aktunç xatirəsinə həsr olunmuş “Oftalmologiya və Sənət” mövzusunda Türk Oftalmologiya Cəmiyyətinin (TOC) 43. Milli Kongresi keçirilib.

Kongresdə 2400 iştirakçı, o cümlədən 60 yaxın oftalmoloqlardan ibarət olan ölkəmizin nümayəndə heyəti var idi. Kongres çərçivəsində mehmanxananın 11 zalında 14 bölmə konfransı, 3 fəxri konfrans, 18 interaktiv toplantı,19 plenar məruzələr, 8 simpozium,1 canlı cərrahiyə və 42 kurs, o cümlədən 8 praktiki əhəmiyyət daşıyan kurslar təşkil olunmuşdur. 719 posterlərin, İlk dəfə olaraq elektron variantları təqdim olunmuşdur. Çıxışların sayı 306 idi, azərbaycan oftalmoloqları aşagıdakı məruzələrlə çıxış etdi:

- Tibb elmləri doktoru, professor Qasımov E.M. - “Azərbaycan regionlarında yüksəkixtisaslı oftalmoloji yardımın göstərilməsində yeni addım-Səyyar Klinika.”;
- Dr. Hüseynov X.R. - “Multifokal göz daxili lenslər.”;
- Dr. Həsənov C.V.- “Keratoplastika və pellusid marginal degenerasiyası.”.

Kongres günlərində mehmanxananın böyük zallarından birində iştirakçıların hazırladıqları rəsm əsərlərinin, fotoşəkillərin, bəzək əşyalarının, heykəltəraş və əl işlərinin sərgisi təşkil olunmuşdur. Kongresin son günündə təntənəli bağlanışdan sonra Qala Konsert təşkil edilmişdir.





TÜRK CUMHURİYETLERİ OFTALMOLOJİ DERNEĞİ

OFTALMOLOGİYA
ELMİ-PRAKTİK JURNAL

11-15 KASIM 2009 Rixos Sungate Kongre Merkezi / Beldibi-Antalya TOD 43. ULUSAL KONGRESİ










***Redaksiya heyəti***